# Şuşadan dünyaya mesaj:

## Müttəfiqlik bəyannaməsi və qardaşlıq andı

*Türk dünyasının damarlarında axan qan, minillərin qovuşuğunda döyünən ürək, eyni kökdən boy atan iki ulu çinar: Azərbaycan və Türkiyə! Bu iki qardaş xalq tarixin çətin dövrlərində bir-birinin yanında olmuş, zamanın sərt sınaqlarına birlikdə sinə gərmiş, qələbələri, zəfərləri birlikdə bölüşmüşdür. Çanaqqala səngərlərində, Qarabağda azadlıq sədalarının ucaldığı günlərdə, Şuşa qalasının sıldırım qayalarında əks-səda verən türkün yenilməz ruhu, Füzuli səmasında qanadlanan azadlıq hekayəsi, Zəngəzur vadisində çəkilən yeni yollar... Bütün bunlar Azərbaycan-Türkiyə qardaşlığının sarsılmaz gücünün təzahürüdür. Şuşa Bəyannaməsi isə bir millətin iki dövlət olaraq addımladığını, çiyin-çiyinə dayandığını dünyaya bir daha nümayiş etdirdi.*



10 dekabr 2020-ci il tarixi Azərbaycanın müasir salnaməsinə qızıl hərflərlə yazıldı. Bakının Azadlıq meydanı 44 günlük Vətən müharibəsində qazanılan Qələbənin şərəfinə keçirilən möhtəşəm Zəfər paradına şahidlik etdi. Bu parad yalnız Azərbaycanın hərbi gücünü və ordusunun şanlı qələbəsini nümayiş etdirmədi, həm də qardaş ölkə Türkiyə ilə sarsılmaz birliyin rəmzinə çevrildi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın haqq savaşında olduğu kimi, qələbə sevincində də yanında idi.

2021-ci il iyunun 15-i Azərbaycanın, o cümlədən bütün Türk dünyasının siyasi tarixinə mühüm bir dönüm nöqtəsi kimi yazıldı. Tarixin sınaqlarından şərəflə çıxan Azərbaycan-Türkiyə qardaşlığı həmin gün Şuşada imzalanan Müttəfiqlik bəyannaməsi ilə yeni mərhələyə qədəm qoydu. Şuşa Bəyannaməsi yalnız iki ölkənin siyasi əlaqələrinin möhkəmləndirilməsi deyildi. Bu sənəd əslində, birgə mübarizə yolunun hüquqi çərçivəyə salınması idi. Ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsi və Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları strateji tərəfdaşlığın real ifadəsi kimi sənəddə əks olundu.

Bəyannamə siyasi, hərbi, iqtisadi və mədəni sahələrdə əməkdaşlıq prinsiplərini təsbit etməklə yanaşı, Azərbaycanın və Türkiyənin ortaq maraqlarını qorumaq üçün güclərini birləşdirəcəklərini bəyan etdi. Xüsusilə müdafiə sahəsində əməkdaşlıq, hərbi yardımlaşma və təhlükəsizlik məsələlərində tərəflərin bir-birinə dəstək verəcəyi açıq şəkildə bildirildi.

Bəyannamədə vurğulanan məqamlardan biri də Azərbaycan və Türkiyə diasporlarının fəaliyyətinin əlaqələndirilməsidir. Qardaş xalqların dünya səhnəsində səsi daha güclü eşidilməli, tarixi həqiqətlərin təhrif olunmasına qarşı birgə mübarizə aparılmalıdır.

Bu tarixi gün Şuşanın azad edilməsi ilə başlanan yeni dövrün rəmzi oldu. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bir daha bəyan etdilər ki, Türkiyə və Azərbaycan bütün məsələlərdə bir yerdə olub, bir yerdə olacaq. Prezident İlham Əliyevin də dediyi kimi, dünyada bu qədər bir-birinə yaxın olan ikinci ölkə yoxdur. Bu qardaşlıq sözdə deyil, əməldədir!



Azərbaycan və Türkiyə arasındakı münasibətlər dostluq və qardaşlıq prinsiplərinə əsaslanaraq vahid bir siyasət xətti ilə güclənib və möhkəmlənib. Bu illər ərzində iki dövlətin strateji əməkdaşlığı təkcə rəsmi sənədlərdə deyil, reallıqda özünü büruzə verib. Prezident İlham Əliyevin də vurğuladığı kimi, həqiqi müttəfiqlik yalnız yaxşı günlərdə deyil, çətin zamanlarda da sınaqdan keçir. Türkiyənin 44 günlük Vətən müharibəsi zamanı Azərbaycanın yanında olması, siyasi, diplomatik və mənəvi dəstək verməsi bu qardaşlığın sarsılmaz dayaqlar üzərində qurulduğunu bir daha sübut etdi. Azərbaycan-Türkiyə münasibətlərinin müttəfiqlik zirvəsinə yüksəlməsi Şuşa Bəyannaməsi ilə rəsmi təsdiqini tapdı. Bu tarixi sənəd iki ölkənin siyasi iradəsinin ifadəsi, eyni zamanda hüquqi və strateji baxımdan qarşılıqlı öhdəliklərin müəyyənləşdirilməsinə xidmət edən sənəddir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşa Bəyannaməsinin qüvvəyə minməsi ilə bağlı fərman imzalaması, 2022-ci il fevralın 3-də Türkiyə Böyük Millət Məclisi tərəfindən təsdiq edilməsi Ankara-Bakı müttəfiqliyinin qanuni əsaslara söykəndiyini nümayiş etdirdi. Fevralın 12-də isə Prezident İlham Əliyevin Şuşa Bəyannaməsini təsdiqləyən qanunu imzalaması ilə Azərbaycan da bu tarixi sənədi rəsmi olaraq qəbul etdi.

Bu hadisələr 44 günlük müharibədən sonra bölgədə formalaşan yeni siyasi reallıqların təsdiqidir. Şuşa Bəyannaməsi eyni zamanda regional təhlükəsizlikdə mühüm sənəddir. Azərbaycan-Türkiyə əməkdaşlığının bu yeni formatı, bölgədə sabitlik və güc balansına təsir edən, gələcək perspektivləri müəyyənləşdirən strateji addımdır.

Bu gün Azərbaycan-Türkiyə münasibətləri siyasi və iqtisadi, hərbi, mədəni və sosial sahələrdə paralel inkişaf edir. Müttəfiqliyin imzalarla təsdiq olunduğu bu yeni dövrdə, hər iki ölkə öz suverenliyini və ərazi bütövlüyünü qorumaq üçün vahid bir güc mərkəzi kimi çıxış edir. Şuşa Bəyannaməsi tarixin qızıl səhifələrinə yazılmış bir sənəd olmaqla yanaşı, gələcək nəsillərə də qardaşlığın, birliyin və strateji tərəfdaşlığın nümunəsi olaraq qalacaq.

2021-ci ilin oktyabrında Füzuli Beynəlxalq Hava Limanının açılışında Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın birgə iştirakı, iki dövlətin müttəfiqliyinin daha bir parlaq nümunəsi oldu. Hava limanının istifadəyə verilməsi regionun inkişafını, eyni zamanda azad edilmiş torpaqlarda yenidənqurma prosesinin miqyasını və sürətini dünyaya nümayiş etdirdi. Həmin gün liderlərin Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolundakı tikinti işləri ilə tanış olmaları, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlinin qoyulması və Zəngilanın Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsinin gedişi ilə maraqlanmaları, azad olunmuş ərazilərin bərpasının yalnız iqtisadi deyil, strateji əhəmiyyət daşıdığını bir daha sübut etdi.



Prezident İlham Əliyev çıxışında vurğuladı ki, Vətən müharibəsində qardaş Türkiyənin ilk saatlardan Azərbaycanın yanında olması, verilən açıq siyasi və mənəvi dəstəyi, bu qardaşlığın həqiqi gücünü dünyaya göstərdi.

İki qardaş ölkənin texnologiya və müdafiə sahəsindəki əməkdaşlığı da müstəsna dərəcədə əhəmiyyətlidir. 2022-ci ilin mayında Bakıda keçirilən "TEKNOFEST Azərbaycan" festivalı Azərbaycan-Türkiyə əlaqələrinin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu göstərdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "TEKNOFEST" festivalının ilk dəfə ölkə xaricində Azərbaycanda keçirilməsini tarixi hadisə kimi qiymətləndirərək bunun Azərbaycan gəncliyi üçün böyük imkanlar yaratdığını vurğuladı. Gələcəkdə də iki dövlətin birgə təşəbbüslərlə yeni layihələrə imza atacağı bildirildi. 2023-cü ilin aprelində İstanbulda keçirilən növbəti "TEKNOFEST" festivalında Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı iki qardaş ölkənin texnoloji sahədə də birgə irəlilədiyini göstərdi.

Bu gün Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP və TAP kimi nəhəng enerji layihələri Azərbaycan və Türkiyə üçün, o cümlədən bütün regionun və dünyanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Bu kəmərlər iqtisadi və geosiyasi əhəmiyyət kəsb etməklə yanaşı, Azərbaycanın və Türkiyənin beynəlxalq arenadakı mövqeyini daha da gücləndirir. İki qardaş ölkə arasında qurulan strateji tərəfdaşlıq modeli, ən çətin dövrlərdə özünü sübut edib.

Azərbaycan və Türkiyə birliyi sarsılmazdır. Bu münasibətlər iki qardaş xalqın ortaq iradəsini həm də bölgədə sülh və sabitliyə töhfə verən strateji əməkdaşlıq modelini təcəssüm etdirir. Bu qardaşlıq əbədidir və gələcək nəsillərə miras qalacaq. Tarixin ən çətin günlərində bir yerdə olan Azərbaycan və Türkiyə bu gün də inkişaf və tərəqqi yolunda çiyin-çiyinə irəliləyir. Çanaqqaladan Bakıya, Qarabağdan Zəngəzura uzanan bu yol coğrafi sərhədləri, bir millətin bölünməz ruhunu birləşdirən tarixi bir bağdır.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**